TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

"____"________________ 2021-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PİKOVİT** şərbət
PIKOVIT®

**Beynəlxalq patentləşdirilməmiş adı:** Multivitamins

**Tərkibi**
5 ml (1 qaşıq) şərbətin tərkibində ardır:
*Təsiredici maddələr:*

| | |
|---|---|
| Retinol palmitat 1,7 MME/q (vitamin A) | 900 BV |
| Xolekalsiferol 1MME/q (vitamin $D_3$) | 100 BV |
| Askorbin turşusu (vitamin C) | 50,00 mq |
| Tiamin hidroxlorid (vitamin $B_1$) | 1,00 mq |
| Riboflavin natrium fosfat (vitamin $B_2$) | 1,00 mq |
| Piridoksin hidroxlorid (vitamin $B_6$) | 0,60 mq |
| Sianakobalamin (vitamin $B_{12}$) | 1,00 mkq |
| Nikotinamid (vitamin PP) | 5,00 mq |
| Dekspantenol (D-pantenol) | 2,00 mq |

*Köməkçi maddələr:* aqar, traqakant kitrəsi, saxaroza, duru dekstroza (qlükoza), portağal yağı aromatizatoru, portağal aromatizatoru, qreypfrut aromatizatoru, polisorbat 80, limon turşusu monohidratı, al-qırmızı boya [Ponceau 4R] (E124), natrium-benzoat, təmizlənmiş su.

**Təsviri**
Şərbət qatı, yapışkana bənzər, açıq sarıdan qəhvəyimtil-narıncı rəngə qədər, azacıq gözə çarpan hissəcikli mayedir. Xoş qoxu və turş dada malikdir.

**Farmakoterapevtik xassələri**
Polivitamin vasitə.
**ATC kodu:** A11BA.

**Farmakoloji xassələri**
***Farmakodinamikası***
Pikovit şərbətinin tərkibində vitamin kompleksi vardır, hansılar ki, orqanizmdə normal boyatma və inkişaf üçün, sağlamlığın saxlanması və möhkəmləndirilməsi üçün zəruri olan metabolik proseslərin mühüm faktorlarıdır.
*Vitamin A* uşaq orqanizminin hüceyrələrinin böyüməsini və yetişməsini tənzimləyir, həmçinin antioksidant müdafiənin komponentidir, hüceyrə membranının quruluşuna daxildir, dərinin və selikli qişaların müdafiəsi üçün vacibdir, görmənin fotokimyəvi aktında iştirak edir, hüceyrə immuniteti reaksiyasını stimullaşdırır.
*Vitamin $D_3$* orqanizmdə kalsium və fosfor balansının saxlanmasında mühüm rol oynayır. Onun çatışmazlığı zamanı sümük toxumasında kalsiumun miqdarı azalır, raxit inkişaf edir.

*Vitamin $B_1$* karbohidtat mübadiləsini təmin edir, sinir sisteminin normal fəaliyyətinə səbəb olur.
*Vitamin $B_2$* toxumaların, o cümlədən dəri hüceyrələrinin regenerasiya proseslərinə kömək edir.
*Vitamin $B_6$* zülal, karbohidrat və yağ mübadiləsində iştirak edir, hemoqlobinin, həmçinin qalxanabənzər vəzi hormonlarının əmələ gəlməsində iştirak edir, sümüklərin, dişlərin, dişətinin quruluşunun və funksiyalarının saxlanmasına səbəb olur.
*Vitamin $B_{12}$* qanyaranma proseslərində iştirak edir, sinir sisteminin normal fəaliyyət göstərməsinə səbəb olur.
*Vitamin C* əsas vitamin-antioksidantdır, dəmirin bağırsaqdan sorulmasında iştirak edir, birləşdirici toxumada mübadiləni tənzimləyir, damarların keçiriciliyini normallaşdırır, toksinlərin zərərsizləşdirilməsində aktiv iştirak edir, orqanizmin infeksiyalara qarşı davamlılığını yüksəldir, iltihabi reaksiyaları zəiflədir.
*Nikotinamid* toxumalarda metabolik prosesləri aktivləşdirir, regenerasiya proseslərinin gedişini yaxşılaşdırır, steroid hormonların sintezində iştirak edir.
*D-pantenol* zülal metabolizmində, yağ turşularının və xolesterinin sintezində, enerji hasilində iştirak edir, bağırsaq biosenozunun mühüm komponenti olan bifidobakteriyaların artmasına kömək edir.

***Farmakokinetikası***

Pikovit şərbəti haqqında farmakokinetik məlumat yoxdur. Orqanizmdəki bəzi vitaminlərin funksiyaları məlumdur və ədəbiyyatda təsvir olunur.
Suda həll olan vitaminlər (B vitaminləri, C vitamini və nikotinamid) gündəlik tələbatı ödəmək üçün lazım olan miqdarda çox yaxşı sorulur. Artıq miqdar sidiklə, bəzi hallarda isə nəcislə də xaric olur. Bu vitaminlər bədəndə məhdud miqdarda saxlanılır, buna görə də onların müntəzəm qəbulu toxumalarda kifayət qədər konsentrasiyanı qorumaq üçün lazımdır. Yağların iştirakı ilə, yağda həll olunan A və D vitaminləri, peroral qəbul edildikdə, nazik bağırsaqda yaxşı sovrulur.

**İstifadəsinə göstərişlər**

Pikovit şərbəti normal qidalanmanı əvəz etmir.
Pikovit şərbəti uşaqlar üçün profilaktik məqsədlə nəzərdə tutulmuşdur:
- iştaha olmayan zamanı;
- orqanizmin infeksion və soyuqdəymə xəstəliklərinə qarşı müqavimətini yüksəltmək üçün;
- keçirilmiş xəstəliklərdən sonra sağalma dövründə;
- fiziki inkişaf kifayət qədər olmayan zaman (boyatmanın gecikməsi);
- xüsusilə, qış və yaz mövsümlərində, gündəlik rasionda vitamin qismində;
- məktəb yaşlı uşaqlarda yüksək fiziki və sinir-psixi yüklənmə zamanı;
- antibiotiklərdən istifadə zamanı kompleks müalicənin tərkibində.

**Əks göstərişlər**

Preparatın tərkibindəki maddələrə qarşı yüksək həssaslıq.
Şəkərli diabet (5 ml Pikovit şərbətinin tərkibində 3 q şəkər vardır).
A və D hipervitaminozu.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

***Pikovit şərbətini 1 yaşa qədər uşaqlara vermək tövsiyə olunmur.***
Hər hansı hiperhəssaslıq reaksiyası zamanı preparatın qəbulu dayandırılmalıdır.
Sidiyin sarı rəngə boyana bilməsi tamamilə zərərsizdir və şərbətin tərkibində riboflavinin olması ilə izah olunur.
Pikoviti tərkibində vitaminlər olan preparatlarla qəbul etmək tövsiyə olunmur.
*Xəbərdarlıq:* Xəstəlik zamanı və ya dərman qəbulu periodunda istifadədən öncə həkimlə məsləhətləşin.
5ml Pikovit şərbətinin tərkibində 3,3 q saxaroza, 0,7 q qlükoza vardır, buna görə də anadangəlmə kəskin qlükoza və fruktoza keçirməzliyi, qlükoza/qalaktoza malabsorbsiya sindromu və saxaroza/izomaltoza çatışmazlığı olan uşaqlara tövsiyə olunmur. Preparatın tərkibində azorəngləyici E124 vardır, hansı ki, allergik reaksiyalar yarada bilər.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**

Vitamin C sulfanilamidlər qrupundan olan antimikrob vasitələrin təsirini və əlavə effektlərini (o

cümlədən sidikdə kristalların meydana çıxması) gücləndirir.
***Uyuşmazlığı***
Tətbiq edilməyib.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamilə qadınlara və süd verən analara vitaminləri həkim məsləhəti ilə qəbul etmək gərəkdir. Şərbətdəki vitamin dozaları uşaqlar üçün məsləhət görülüb.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparatın nəqliyyat vasitələrinin və mexanizmlərin idarəedilməsinə təsiri haqqında məlumat yoxdur. Preparat uşaqların hərəkət funksiyasına təsir etmir.

**İstifadə qaydası və dozası**
Preparat daxilə qəbul olunur.
İstifadə etməzdən əvvəl şərbəti çalxalamaq lazımdır.
1 yaşdan 3 yaşa qədər uşaqlar: gündə 2 dəfə 1 dozalayıcı və ya çay qaşığı (5 ml) şərbət tövsiyə olunur.
4 yaşdan 6 yaşa qədər uşaqlar: gündə 3 dəfə 1 dozalayıcı və ya çay qaşığı (5ml).
7 yaşdan 14 yaşa qədər uşaqlar: gündə 3-4 dəfə 1 dozalayıcı və ya çay qaşığı (5ml).
Şərbəti çay, şirə və ya meyvə püresi ilə qarışdıraraq və ya qaşıq vasitəsilə vermək olar.
Kifayət qədər iştaha olmadıqda şərbəti 1 ay müddətində hər gün vermək lazımdır.
Təkrar kurs 1-3 aydan sonra və ya həkim məsləhəti ilə.

**Doza həddinin aşılması**
Tövsiyə olunan dozalarda qəbul zamanı intoksikasiya gözlənilmir.
Yüksək dozalarda qəbul A və D hipervitaminozuna səbəb ola bilər, amma doza həddinin aşılması az ehtimal olunandır.

**Əlavə təsirləri**
Allergik reaksiyalar mümkündür. Tövsiyə olunan gündəlik dozanı artırmayın, təsadüfən yüksək dozaların qəbulu zamanı dərhal həkimə müraciət edin.

**Yararlılıq müddəti**
2 il.
Flakon açıldıqdan sonra 2 ay ərzində istifadəyə yararlıdır.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda saxlamaq lazımdır. İşıqdan qorumaq üçün orijinal bağlamada saxlamaq lazımdır.
Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Buraxılış forması**
Şərbət.
Şüşə flakon (Ph. Eur. III tip) plastik qapaqlı, plastik dozalayıcı qaşıq: 150ml şərbət, karton qutuda.

**Buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
KRKA, d.d., Novo mesto, Sloveniya
Smarjeska c. 6, 8501 Novo mesto, Slovenia

**Azərbaycanda Nümayəndəlik**
Xocalı Prospekti 55, AGA Biznes Mərkəzi.
Tel.: (+99412) 464 40 22/23; (+99450) 264 29 27.